**Nazirlər Komitəsinin üzv dövlətlərə gender bərabərliyi və media üzrə Tövsiyəsi CM/Rec(2013)1**[1]

*(10 iyul 2013-cü il tarixində nazir müavinlərinin 1176-cı görüşündə Nazirlər Komitəsi tərəfindən qəbul edilmişdir)*

Gender bərabərliyi insan hüquqlarının tam həyata keçirilməsi üçün əvəzolunmaz şərtdir. Avropa İnsan Hüquqları Konvensiyası (ETS No. 5) və onun protokolları ilə verilən hüquqların istifadəsi cinsi mənsubiyyət də daxil olmaqla, heç bir ayrıseçkiliyə yol verilmədən qorunmalıdır. Bu tələb qanunla nəzərdə tutulmuş istənilən hüquqdan istifadənin heç bir ayrı-seçkiliyə yol verilmədən həyata keçirilməsinə zəmanət verən Konvesiyanın (ETS No. 177) 12 saylı Protokolu ilə dəstəklənir.

Həqiqi demokratiya qadın və kişilərin cəmiyyətdə bərabər hüquqlu iştirakını tələb edir. Demokratiya və gender bərabərliyi bir-birindən asılıdır və qarşılıqlı şəkildə inkişaf edir. Qadın və kişilərin bərabər hüquq və imkanlar əsasında qiymətləndirilməsi demokratik idarəetmə və düzgün qərar qəbul etmə üçün zəruri şərtdir. Gender bərabərliyi media da daxil olmaqla ictimai həyatın bütün sahələrində qadın və kişilərin bərabər nüfuza, səlahiyyət və məsuliyyətə, iştirak hüququna malik olması deməkdir. Gender bərabərliyinin əldə edilməsi sosial ədalətin əldə edilməsi üçün ilkin şərtdir. Bu təkcə qadınları deyil, bütövlükdə cəmiyyəti narahat edən bir məsələdir. Avropa Şurası 1988-ci ildə Nazirlər Komitəsinin qəbul etdiyi qadın və kişilərin bərabərliyi haqqında Bəyannaməsi və 2009-cu ildə Nazirlər Komitəsinin qəbul etdiyi gender bərabərliyinin reallaşdırılması haqqında Bəyannaməsi ilə son onilliklər ərzində bu məsələlərə böyük diqqət yetirdiyini göstərmişdir.

Mətbuat azadlığı (redaksiya azadlığı daxil olmaqla) və gender bərabərliyi bir- biri ilə ayrılmaz şəkildə bağlıdır. Gender bərabərliyi insan hüquqlarının ayrılmaz tərkib hissədir. Söz azadlığı əsas hüquq kimi gender bərabərliyi ilə sıx bağlıdır. Bundan əlavə, söz azadlığının həyata keçirilməsi gender bərabərliyinin inkişafına təkan verir.

Media plüralizmi və media məzmununun müxtəlifliyi üçün gender ölçüsü mövcuddur. Media plüralizmi və media məzmununun müxtəlifliyinə dair Tövsiyə CM/Rec(2007)2 demokratik cəmiyyətin formalaşması, cəmiyyətdə ictimai müzakirənin, siyasi plüralizm və müxtəlif qrupların fərqli fikirlərindən xəbərdarlığın möhkəmləndirilməsi üçün müxtəliflik və plüralizmin mühüm əhəmiyyət kəsb etdiyini bir daha vurğulayır. Media cəmiyyətin təfəkkürünü, ideya, münasibət və davranışlarını formalaşdırmaqda aparıcı mövqe tutur. Onlar qadın və kişiləri bütün fərqlilikləri ilə birlikdə real şəkildə əks etdirməlidirlər.

Media gender bərabərliyi istiqamətində struktur dəyişikliyinə həm təkan verə, həm də ona mane ola bilər. Cəmiyyətdəki bərabərsizliklər mediada əks olunur. Bu özünü media sahibkarlığında, informasiya istehsalında və jurnalistikada, redaksiyalarda və rəhbər vəzifələrdə qadınların kifayət qədər təmsil olunmamasında göstərir. Bu qadınların həm kəmiyyət, həm də keyfiyyət baxımından kütləvi informasiya vasitələrinin məzmununda az görünməsində, kütləvi informasiya vasitələrində nadir hallarda qadınların ekspert qismində çıxış etməsində və qadınların fikir və əqidələrinin nisbi yoxluğunda daha bariz görünür. Siyasi hadisələrin və seçki kampaniyalarının mediada işıqlandırılması xüsusilə bu məsələdən, eləcə də gender

stereotiplərinin dayanıqlığı və əks stereotiplərin azlığından xəbər verir. Bundan əlavə, qadınlar media peşəkarları olaraq tez-tez ödəniş bərabərsizlikləri, mövcud problemlərin görünməməsi və işəgötürmənin ağır şərtləri ilə üzləşirlər.

Müasir cəmiyyətlərdə media sosial dəyişiklik baxımından böyük potensiala malikdir. BMT-nin Dördüncü Ümumdünya Konfransında (Pekin, 1995) medianın qadınların əsas hüquq və azadlıqlarını müdafiə və təbliğ etmək, eləcə də onların inkişafına töhfə vermək perspektivindən potensialı vurğulanmışdır. On il sonra, BMT-nin Qadınların Vəziyyəti üzrə Komissiyası burada razılaşdırılmış məqsədlərə tam şəkildə nail olunmadığını bildirib. Bu məqsədlərin həyata keçirilməsini asanlaşdırmaq məqsədilə 2012-ci ilin dekabrında YUNESKO tərəfindən "Media üçün genderə həssas göstəricilər" (GSIM) dərc olunmuşdur.

İctimai media vasitələri müasir media sisteminin avanqard qüvvəsi olmalı və cəmiyyətdəki bütün icmalara xidmət göstərməlidirlər. Bu, ictimai media vasitələrində iştirak hüququ və ondan istifadə imkanları, eləcə də onun izah olunduğu və təqdim edildiyi məzmun və tərz baxımından gender bərabərliyi üçün xüsusi diqqət tələb edir. İctimai media vasitələri ictimai birlik və bütün fərdlərin inteqrasiyası üçün bir vasitədir və ya olmalıdır, eləcə də media daxilində və media vasitəsilə gender bərabərliyinin inkişaf etdirilməsinə mühüm rol oynayır. İctimai media vasitələri, o cümlədən rəqəmsal platformalar vasitəsilə, bütün sosial qruplar arasında açıq və birbaşa dialoqa təşviq etmək üçün böyük potensial var (bax: informasiya cəmiyyətində ictimai medianın səlahiyyətlərinə dair Tövsiyə CM/Rec(2007)3, 11 fevral 2009-cu ildə qəbul olunmuş ictimai birliyin və mədəniyyətlərarası dialoqun təbliğində ictimaiyyətə xidmət edən MEDIA-in roluna dair Nazirlər Komitəsinin Bəyannaməsi, 15 fevral 2012-ci ildə qəbul olunmuş ictimai medianın idarəetməsinə dair Tövsiyə CM/Rec(2012)1).

Gender bərabərliyinə və bərabərsizliklə mübarizəyə töhfə verən qəbul edilmiş standartların səmərəli şəkildə həyata keçirilməsi üçün tədbirlər. Nazirlər Komitəsi gender bərabərliyi üzrə standart və mexanizmlərə dair Tövsiyəsində CM/Rec(2007)17 üzv dövlətlərin müasir cəmiyyətlərdə tutduqları hakimiyyətlərindən irəli gələn sosial məsuliyyətlərinə uyğun olaraq, mediada insan hüquqlarının prinsipi kimi gender bərabərliyinə hörmətlə yanaşılmanı təmin etmək üçün səmərəli tədbirləri təbliğ etməli olduqlarını vurğulayıb. Nazirlər Komitəsi gender bərabərliyinin reallaşdırılması haqqında 2009-cu il tarixli Bəyannaməsində MEDIA peşəkarlarını və ümumilikdə kommunikasiya sektorunu qadınların və kişilərin qeyri-stereotip təsvirinin təbliğ edilməsi yönündə stimullaşdırmaq üçün tədbirlər görməyə çağırıb. Gender perspektivinə Avropa Şurasının bir çox sənədlərində toxunulur və xüsusilə yeni MEDIA anlayışına dair Tövsiyə CM/Rec(2011)7-də yeni media ekosistemi ilə münasibətdə nəzərə çarpdırılır.

Yuxarıdakıları nəzərə alaraq və media sahəsində müəyyən edilmiş standartların həyata keçirilməsi zamanı gender bərabərliyi perspektivinin təmin edilməsi zərurətini tanıyaraq, Avropa Şurası Nizamnaməsinin 15.*b* maddəsinin şərtlərinə uyğun olaraq, Nazirlər Komitəsi üzv dövlətlərin hökümətlərinə aşağıdakıları tövsiyə edir:

1. əlavə olunmuş təlimatlara uyğun olaraq müvafiq siyasətlərin qəbul edilməsi-bu, mediaya gender bərabərliyini fəaliyyətlərdə və institusional təşkilatlara isə yeni çoxölçülü media mühitində əsas prinsip kimi təbliğ etmək üçün müvafiq imkanlar yarada bilər;

2. hazırkı tövsiyənin və onun təlimatlarının geniş şəkildə yayılmasını, müvafiq maraqlı tərəflər və media arasında xüsusilə demokratiya və insan hüquqlarının tam şəkildə həyata keçirilməsində gender bərabərliyinin tutduğu aparıcı mövqeyə dair maarifləndirmənin aparılmasını;

3. Tövsiyənin media sektorunun, jurnalistlərin, digər subyektlərin və onların müvafiq təşkilatlarının, habelə media üçün tənzimləyici təşkilatların diqqətinə çatdırılması və aşağıda göstərilən təlimatlara uyğun olaraq öz tənzimləyici və özünü-tənzimləmə strategiyalarına yenidən baxılması və ya hazırlanması üçün yeni informasiya və rabitə xidmətləri;

*Tövsiyə CM/Rec(2013)1-ya Əlavə*

**Təlimatlar**

**A. Üzv dövlətlər**

1. Üzv dövlətlər media daxilində insan ləyaqəti prinsipinə hörmətin təbliği və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının, eləcə də nifrətə çağırışın və hər hansı bir formada gender əsaslı zorakılığın aradan qaldırılmasını təmin etmək üçün nəzərdə tutulan müvafiq hüquqi baza qəbul etməlidirlər.

2. Üzv dövlətlər müvafiq vasitələr ilə media tənzimləyicilərinin qərar qəbul etmə prosesində və təcrübədə gender bərabərliyi prinsiplərinə riayət etmələrini təmin etməlidirlər.

3. Üzv dövlətlər mediada gender stereotiplərinə qarşı mübarizədə maarifləndirmə təşəbbüs və kampaniyalarını dəstəkləməlidirlər.

**B. Media təşkilatları**

4. Aşağıda göstərilən məqsədlərə yönəldilmiş əsaslı daxili siyasət və iş şəratinin yaradılmasına təşviq etmək məqsədilə media təşkilatları özünütənzimləmə tədbirləri, daxili etika/davranış kodeksi qəbul etmək və daxili nəzarəti təmin etmək, eləcə də kütləvi informasiya vasitələrinin işıqlandırılmasında gender bərabərliyini təbliğ edən standartlar işləyib-hazırlamaq üçün həvəsləndirilməlidirlər:

- qadınların kifayət qədər təmsil olunmadıqları sahələr də daxil olmaqla media işində qadın və kişilər üçün bərabər çıxış imkanları, təmsilçilik;

- rəhbər vəzifələrdə, məsləhətçi, tənzimləyici və daxili nəzarətçi qismində müəssisələrdə, ümumilikdə qərar qəbul edilmə prosesində qadın və kişilərin balanslaşdırılmış iştirakı;

- qadın və kişilərin qeyri-stereotip təsviri, rolu və nüfuzu, cinsi mənsubiyyət zəminində ayrı-seçkiliyə gətirib çıxara biləcək gender xarakterli reklam, dil və məzmununun, nifrətə təhrikin və gender əsaslı zorakılığın aradan qaldırılması.

**C. Həyata keçirilməsi üçün tədbirlər**

5. Mediada gender bərabərliyi məqsədlərinə nail olmaq üçün siyasət və strategiyaların həyata keçirilməsi üzrə aşağıdakı mexanizmlər nəzərə alınmalıdır:

***Gender bərabərliyi siyasət və qanunvericiliyinin nəzərdən keçirilməsi və qiymətləndirilməsi***

i. Media üzrə qanunvericilik bazasının gender bərabərliyi prespektivindən müntəzəm olaraq nəzərdən keçirilməsi və yenilənməsi.

ii. Media tənzimləyicilərinə səlahiyyət verilməsi və ictimai medianın illik hesablatlarına mediada gender bərabərliyi siyasətinin həyata keçirilməsi üzrə qiymətləndirilmənin daxil etmələrinin tələb edilməsi.

***Mediada gender bərabərliyi üzrə milli göstəricilərin qəbul edilməsi və həyata keçirilməsi***

iii. Əgər mövcuddursa, müvafiq maraqlı tərəflər ilə beynəlxalq standartlara və qabaqcıl təcrübəyə əsaslanan milli göstəricilərin qəbul edilməsi imkanının müzakirə edilməsi; bununla əlaqədar ictimai dinləmələrin və müzakirələrin aparılması.

iv. Qəbul edilmiş göstəriciləri əsasında milli müstəvidə kütləvi informasiya vasitələrində gender bərabərliyi vəziyyətinin müntəzəm monitorinqinin və qiymətləndirməsinin həyata keçirilməsi.

v. Mütəmadi olaraq gender bərabərliyini göstəricilərinin yenilənməsi.

***Məlumatın təmin edilməsi və qabaqcıl təcrübənin təbliği***

vi. Media gender bərabərliyi prinsiplərinə zidd hesab etdikləri media məzmunu ilə bağlı şikayətlər proseduru üzrə cəmiyyətə aydın şəkildə məlumat verməyə (məsələn, onlayn) təşviq etmək.

vii. Yeni media ekosisteminin müxtəlif fəaliyyət sahələrində gender bərabərliyi üçün kütləvi informasiya vasitələri arasında şəbəkə və tərəfdaşlıqların inkişaf etdirilməsi vasitəsilə qabaqcıl təcrübələri dəstəkləmək və təbliğ etmək.

***Hesabatlılıq kanalları***

viii. Qeyri-hökumət təşkilatlarını, media dərnəklərini, fiziki şəxsləri və digər müvafiq maraqlı tərəfləri öz narahatlıqlarını davamlı olaraq özünütənzimləmə təşkilatlarına və ya digər ixtisaslaşmış qurumlara (məsələn, mətbuat şuraları, etika üzrə komissiyaları, reklam şuraları, ayrı-seçkiliklə mübarizə komissiyaları) bildirməklə gender bərabərliyini dəstəkləməyə təşviq etmək.

ix. Mövcud media hesabatlılıq mexanizmlərinin yenilənməsinə və mediada gender bərabərliyinin pozulması hallarında onların səmərəli istifadəsinə təşviq etmək.

x. Media üçün hesabatlılıq və ictimai məsuliyyət üzrə yeni mexanizmlərin yaradılmasına təşviq etmək, məsələn, vətəndaşlar arasında birbaşa məlumat mübadələlərinə imkan yaradan ictimai müzakirə və platformalar üçün onlayn və oflayn forumlar.

***Tədqiqat və nəşr***

xi. Gender bərabərliyi və media məsələləri, xüsusilə mediaya çıxış imkanı, mediada təmsilçilik, iştirak (kəmiyyət və keyfiyyət profili) və mediada iş şərtləri ilə bağlı fəal tədqiqat aparmağı təbliğ etmək; yalnız qadınların üzərində deyil, eləcə də kişi və qadınlar arasında münasibətləri üzərində cəmləşən tədqiqat; bu cür layihələrin nəticələrinin müntəzəm olaraq ictimailəşdirilməsi.

xii. Plüralist demokratiyada xüsusi narahatlıq doğuran müəyyən sahələrin mediada işıqlandırılması üzrə gender bərabərliyi perspektivindən fəal tədqiqata təşviq edilməsi, məsələn, siyasət və seçki kampaniyalarının mediada işıqlandırılması üzrə hesabatın verilməsi və nəticələrin nəşr edilməsi; siyasət və qanunvericiliyin təkmilləşdirilməsi məqsədi ilə müzakirələrin təşkil edilməsi.

xiii. Qadın və kişilərin dəyər, münasibət, ehtiyac və maraqlarının formalaşmasında medianın təsiri üzrə tədqiqata təşviq edilməsi.

***Media savadlılığı və fəal vətəndaşlıq***

xiv. Gənc nəsil üçün genderə həssas media maarifləndirməsinə təşviq etmək, media məzmunun müxtəlif formalarına məsuliyyətlə yanaşan gənc nəsil hazırlamaq və onlara mətbuatda gender təmsilçilərinə qarşı tənqidi baxış sərgiləmək və gender stereotiplərini deşifrə etmək üçün imkan yaratmaq; müxtəlif yaş qrupundan olan gənclər üçün nəzərdə tutulan media maarifləndirilməsi proqramlarında insan hüquqlarının geniş tədrisi və demokratik proseslərdən fəal iştirak etmək üçün əsas faktor kimi gender bərabərliyi perspektivinin rolunu artırmaq;

xv. İnformasiya cəmiyyətində gender təhsilinin və fəal vətəndaşlığın inkişaf etdirilməsi üçün vacib amillərindən sayılan valideyn və müəllimlər də daxil olmaqla böyüklər üçün media ilə bağlı xüsusi maarifləndirmə vasitələrinin işlənib-hazırlanması.

xvi. Gender bərabərliyi üzrə dərin biliklərin əldə edilməsi və demokratik cəmiyyətdə onun həlledici rolunun dərk edilməsi istiqamətində müntəzəm olaraq təhsil və peşə hazırlığı proqramları təklif etməklə Media peşəkarlarının və bu sahədə təhsil alan tələblərin məlumatlılığının artırılması və potensiallarının gücləndirilməsi.

**İstinad edilən sənədlər**

***Avropa Şurasının Nazirlər Komitəsi***

Mediada qadın və kişi bərabərliyinə dair Tövsiyə Rec(84)17

Dildə seksizmin aradan qaldırılmasına dair Tövsiyə Rec(90)4

Gender probleminin ön plana çıxarılmasına dair Tövsiyə Rec(98)14

Siyasətdə və dövlət əhəmiyyətli qərarların qəbuledilməsində qadın və kişilərin balanslaşdırılmış iştirakına dair Tövsiyə CM/Rec(2003)3

Media plüralizmi və media məzmun müxtəlifliyinə dair Tövsiyə CM/Rec(2007)2

İnformasiya cəmiyyətində ictimai media vasitələrinin səlahiyyətlərinə dair Tövsiyə CM/Rec(2007)3

Yeni informasiya və kommunikasiyalar mühitində söz azadlığının təbliğ edilməsinə dair Tövsiyə Rec(2007)11

Təhsildə gender probleminin ön plana çıxarılmasına dair Tövsiyə CM/Rec(2007)13

İnternetin ictimai xidmət dəyərinin təşviqi tədbirlərinə dair Tövsiyə CM/Rec(2007)16

Gender bərabərliyi ilə bağlı standart və mexanizmlərə dair Tövsiyə CM/Rec(2007)17

11 fevral 2009-cu ildə qəbul olunmuş ictimai birliyin və mədəniyyətlərarası dialoqun təbliğində ictimaiyyətə xidmət edən medianın roluna dair Nazirlər Komitəsinin Bəyannaməsi

Yeni media anlayışına dair Tövsiyə CM/Rec(2011)7

15 fevral 2012-ci ildə qəbul olunmuş ictimai media vasitələrininin idarəetməsinə dair Bəyannamə və Nazirlər KomitəsininTövsiyəsi CM/Rec(2012)1

***Avropa Şurasının Parlament Assambleyası***

"Reklam sahəsində qadınların təsviri"nə dair Tövsiyə 1799 (2007) və Qətnamə (1557 (2007)

"Mediada qadınların təsviri"nə dair Tövsiyə 1555 (2002)

"Mediada seksist stereotiplərlə mübarizə"yə dair Tövsiyə 1931 (2010) və Qətnamə 1751 (2010)

"Seçki sistemi vasitəsilə siyasətdə qadınların təmsilçiliyinin artırılması"na dair Tövsiyə 1899 (2010)

"Dünyada qadın hüquqlarının inkişafı" mövzusunda Qətnamə 1860 (2012)

[1] Bu tövsiyədə "media" termini 21 sentyabr 2011-ci ildə qəbul edilmiş yeni media anlayışına dair Tövsiyənin terminologiyasına istinad edir.